**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Riyaziyyat və Mexanika İnstitutu**

**"Tətbiqi riyaziyyat" şöbəsinin**
**2023-cü il üzrə**
**Hesabatı**

# ELMİ FƏALİYYƏTİ HAQQINDA

Şöbədə 6 elmi işçi və 1 böyük laborant fəaliyyət göstərir. Onlardan ikisi elmlər doktoru, üçü isə fəlsəfə doktorudur.

Şöbədə: **"Qazın, mayenin və qaz-maye qarışığının lay-quyu sistemində hərəkətinin modelləşdirilməsi"** və **"Qeyri bircins konstruksiya elementlərinin deformasiyası, dayanıqlığı və kompozit materialların tətbiqi məsələləri"** mövzusu üzrə elmi iş aparılır.

İl üzrə 5 tezis, 7 məqalə çap olunub.

**<u>Elmi təşkilati fəaliyyəti haqqında:</u>**

Hesabat dövründə şöbə müdiri, m.e.d. E.M.Abbasov ümuminstitut seminarında "Mayenin içərisində hərəkət edən cismə müqavimət qüvvəsinin müəyyənləşdirilməsi" mövzusu ilə çıxış edib.

Riyaziyyat və Mexanika İnstitutunun təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Riyaziyyat və Mexanikanın Müasir Problemləri" adlı Beynəlxalq konfransda E.M.Abbasov "Şaquli boruda maye-qaz qarışığının hərəkəti" mövzusu ilə çıxış edib.

Şöbənin kiçik elmi işçisi A.H.Mövsümova Riyaziyyat və Mexanika İnstitutunun təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Riyaziyyat və Mexanikanın Müasir Problemləri" adlı Beynəlxalq konfransda "Millərlə möhkəmləndirilmiş özlü-elastiki mühitlə təmasda olan qeyri-bircins, zəiflədilmiş silindrik lövhələrin sərbəst rəqsləri" mövzusunda çıxış edib.

Şöbə müdiri, m.e.d. E.M.Abbasov AAK –da Riyaziyyat və Mexanika üzrə ekspert şurasının üzvüdür. 2 fəlsəfə elmləri doktoru, 1 elmlər doktoru üzrə doktorant hazırlığına rəhbərlik edir. Maye, qaz və plazma mexanikası ixtisası üzrə ETN RMİ-nin və Bakı Dövlət Universitetinin magistrlarına dərs tədris edir.

Şöbənin böyük elmi işçisi Ş.A.Kərimova Azərbaycan Texniki Universitetində baş müəllim kimi (əvəzçi) fəaliyyət göstərir.

İşlərin gedişi normaldır, gecikmə yoxdur.

**Şöbə müdiri:** **m.e.d. E.M.Abbasov**